# YUNUS OĞUZUN SÖZLƏRİNDƏ GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR

***Prezident İlham Əliyevin 60 illik yubileyinə!***

Yubiley yaşınızla bağlı ilk dəfədir Sizə təbrik məktubu yazıram, baxmayaraq ki, 2003-cü il Prezident seckilərində namizədliyimi xeyrinizə geri götürəndə (o zaman ilk müxalifətçi idim ki, Sizi dəstəkləmişdim) və namizədliyiniz qalib kimi elan olunandan sonra Sizi, yeni Prezidenti təbrik etmiş, həm də telefonla uğurlar arzulamışdım. Sonrakı illər Prezident seçkilərində bu təbriklər təkrar olundu. İndi fərqli bir şəraitdə yaşayırıq. Bir tərəfdən bütün sahələrdə islahatların aparılması, digər tərəfdən müharibədən Qalib çıxmış, azad olunmuş torpaqlarımızın, kəndlərimizin, şəhərlərimizin yenidən dirçəldilməsi, dağılmış yerlərin yenidən bərpası və tikilməsi, köçkünlərimizin bu yerlərdə yerləşdirilməsi, üçüncü tərəfdən pandemiya şəraitində əhalinin sağlamlığı ilə məşğul olmaq, dördünçü tərəfdən bizi sevməyən, yaxud nəsə uman xarici dövlətlərin təhdidi və basqısı üzərinizə ağır yük və məsuliyyət qoyur. Bu ağır yükü hər dövlət başçısı çəkə bilmir. Müstəqil dövlətin elan olunması bir yükdürsə, onu dirçəltmək, qasırğadan, tufandan keçirib ayaq üstə qoymaq, inkişaf etdirmək, öncül sıralara çıxarmaq daha ağır yükdür. Üstəgəl belə şəraitdə hər kəsin, hər qrupun, partiyanın, sosial şəbəkənin, qeyri-hökumət təşkilatlarının, medianın, ahılların, müharibə iştirakçılarının, şəhid ailələrinin, yazıçıların, şairlərin, müğənnilərin, bütövlükdə yaradıcı insanların ümumiləşdirilmiş maraqlarını təmin etmək yük üstünə əlavə yük gətirir. Amma, Siz bütün bunları səbrlə, inamla həll edirsiniz.

***Ədəbiyyat qəzeti.- 2021.- 25 dekabr.- S.9.***

## Zərif çiyinlərdə "ağır YÜK"

### 1-ci vitse-prezident Mehriban xanım Əliyevanın vəzifəsinin iki illiyinin tamamına

Bu misraları yazanda özüm də bilmədən başımda "Baş sarıtel" havası çalınmağa başladı. Bəlkə sazla bu XANIM arasında bir uyğunluq, əlaqə vardı, ondandı. Əlbəttə vardı. Sonra sazda dinlədiyim "Baş sarıtel" havası bitdi, yerini muğama "Şirvan gözəlləməsi"nə, "Bayatı Qacar"a verdi. Təəccübləndim, özüm özümə sual verdim: "Nədən belə ardıcıllıq yarandı? Çox keçmədi ki, sualıma cavab tapdım: "Əlbəttə belə olmalıdır, çünki, az qala itib batmış muğamı, Dədə Qorquddan (doğrusu, ondan da əvvəl) əmanət qalmış qopumuzu, sazımızı yenidən dirçəltdi bu XANIM - XATIN. Bütün dünyaya tanıtdı, YUNESKO-nun qeyri-maddi mənəvi irs siyahısına daxil etdirdi. Digər on bir qeyri-maddi mənəvi dəyərlərimiz kimi "SAZ"ı "MUĞAMI" azərbaycanlı etdi, Azərbaycanın etdi bu Xanım.

Paravozun çəkə bilmədiyi bu "AĞIR" yükü bu XANIM çəkdi... çəkir, uğurla mənzil başına yetişdirir. Hələ bu başlanğıcın əvvəli idi. Bu Başlanğıcın əvvəli olduğu kimi sonrası da olacaqdı və hələ də davam edir.

Bəziləri düşündü ki, bu "YÜK" ün altında zərif çiyinlər tab gətirməz, əyilər, çat verər, sonra ağrılar başlayar. Amma, belə olmadı. YÜK" çoxaldıqca çiyinlər mətinləşdi, möhkəmləndi, daha "ağır YÜK" götürmə imkanına malik oldu. Ancaq zərifliyini, incəliyini itirmədi. Nə idi ona bu "YÜK"ü çəkib aparmağa güc verən, hər dəfə gücünə "GÜC" qatan? Yazının əvvəlində bir işarəti verdim. Min illərdən süzülüb gələn, süzüldükcə içimizə, qanımıza, yaddaşımıza hopan, adət-ənənəmizin başında duran "SAZ" və "MUĞAM"ı keçmişdən gələcəyə daşıyan MƏSULİYYƏT idi bu "GÜC" .

Zərif çiyinlər bu gücdən titrəmədi, əsmədi, heydən düşmədi."İçim özümü yandırır, çölüm özgəsini" deyiminə fikir vermədi, axı MƏSULİYYƏT daşıyırdı, daşıyır...

Birinci MƏSULİYYƏTİ ailədən başladı. Ata evində aldığı tərbiyəni, öyrəndiyini, əxz etdiyini ƏR evinə daşıdı, "hər BÖYÜK KİŞİnin arxasında duran QADIN MƏSULİYYƏTİNİ unutmadı, SÖZün qədrini bildi. "SÖZ var dağa çıxardar, SÖZ var dağdan endirər" misalına riayət etdi. SÖZü ucalığa çıxartmaqla ailəsini də ucalığa çıxartdı, çünki üzərində daşıdığı məsuliyyət vardı. Bu ona GÜC verirdi.

İkinci MƏSULİYYƏT ətrafı idi. Ətrafını düzgün istiqamətləndirmək idi, çünki "ətrafını, dostunu, tanışını mənə göstər, söyləyim sən kimsən" deyimi hələ dəbdən düşməyib. Ətrafın pis olub, sən yaxşı ola bilməzsən. Bu "YÜK"ün də öhdəsindən gəldi. Ətrafını istiqamətləndirdi, hansı məsuliyyəti və öhdəlikləri daşıdıqlarını onlara anlatdı. Axı, təkcə əlli milyonluq azərbaycanlının, türk dünyasının deyil, bütün dünyanın gözü onlardadır. XANIM-XATIN bu MƏSULİYYƏTİ dərk edir, elə zərif çiyinlərini də "YÜK"ün altına sevgilə qoyur.

Bu "YÜK"ün üçüncü MƏSULİYYƏTİ elinə, obasına, vətəninə, onun insanlarına sevgisi, hörmətidir.

Babalarından, babasından, qayınatasından ƏRinə ötürüldüyü kimi ONA da ötürülmüşdü bu sevgi, bu izzət, insanları dinləmək, dərdlərini, sevinclərini bölüşmək, paylaşmaq, imkanı içində problemləri həll etmək, yaxşılığı unutmamaq, pisin, xəbisin ağzından vurub geri qaytarmaq, hələ nə qədər, nə qədər keyfiyyətləri özündə cəmləyib XANIM-XATIN , bu ZƏRİF QADIN. Fil

dözməz bütün bu "YÜK"ə, o isə dözür, çəkir... aparır. "Uf" da demir, "oy" da da demir, "yoruldum" da demir.

Sadə dildə danışır insanlarla, özünü çəkib "dağ başına" qoymur. Yuxarıdan aşağı baxmır soydaşlarına, arxa bilib, arxa durduqlarına. Bu üzdən ƏRİ kimi , ona da pənah aparırlar, ƏRi kimi onu da sevirlər. Deyəcəkləri qədər, görüləcək işləri də çoxdur. Eli-obası, soydaşlarını layiqdən daha layiqliyə qaldırmaq istəyir zərif çiyinlərində ağır "YÜK" daşıyan bu Qadın.

Qaçqınların, şəhid ailələrinin, qazilərin, əlillərin haqqında ona görə xüsusi danışmaq istəmirəm ki, sadaladıqlarımın heç birini elindən, obasından, soydaşlarından ayırmır. Əksinə onlara daha çox nəvaziş və sevgi göstərir, ən xırda dərdlərini, müşküllərini həll etməyə çalışır və çoxusunu da həll edir. O sehrbaz deyil ki, əlini əlinə vursun, hər şey o an həll olsun. Ən xırda problemi həll etmək üçün nə qədər enerji, nə qədər güc sərf etmək lazımdır. Amma, o bütün bunlardan usanmır, yorulmur, sevə-sevə, bu "YÜK"ü daşıyır, həm də ətrafdakılarını da, sevimli övladlarını da bu işə cəlb edir.

Dördüncüsü, dövlət işinin MƏSULİYYƏTİdir. Elini, obasını dövlət çətiri altına toplamaq, onu özü kimi sevmək məsuliyyətdir, axı dünyada yaşayan bütün azərbaycanlıların bir dövləti var - Azərbaycan. Yağı düşməndən bu Dövləti qorumaq, onu bütöv halına gətirmək, iqtisadiyyatını gücləndirmək, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq, ƏRi kimi həm də onun işidir. Bu isə çox ağır YÜK, həm də MƏSULİYYƏTLİ YÜKdür. Azərbaycanımızı hər sahədə Liderlər sırasına qatmaq heç də asan deyil, ancaq mümkündür və bu sahədə işlər görülür, bundan sonra da görüləcək.

Usta sarbanı olan karvana təhlükə gəlməz!

Yenə başımda "Baş sarıtel" havası çalındı, "Şirvan Gözəlləməsi", "Bayatı Qacar" muğamı oxundu. Bu musiqinin sədaları altında zərif çiyinlərini ağır YÜKün altına verən, "yoruldum" deməyən bir XANIM-XATIN irəliləyir.

YÜKün mübarək ZƏRİF QADIN

***İki sahil.- 2019.- 21 fevral.- S.8.***

***"...65 ilə 650 ilin mirasını sığdırdı..."***

***"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevə yubiley təbriki...***

......Dünya təkcə dağdan-daşdan, ayrı-ayrı insanların qurub-tikdiyi memarlıq nümunələrindən abidələr yaratmır.. o həm də dəyəri heç bir qiymətə sığmayan insandan abidə yaradır... və o insanlar zaman, məkan ölçüsünə sığmır... dünya təkcə ləl-cəvahiratdan xəzinə yaratmır... o həm də əyar ölçüsü olmayan insandan xəzinə yaradır... mənim üçün Aydın Quliyev dünyanın bütün zamanlarında yaşayan ulusal bir dəyərdir! Mənim üçün Aydın Quliyev Allahın Ğöy Qübbəsi altında bütün insanlığa bəxş etdiyi Əmanətdir! Sərvətdir! Mediamızın, ictimai-siyasi platformamızın, publisistikamızın "yeraltı və yerüstü" sərvətidir! Bitməz- tükənməz! Mənim üçün Aydın Quliyev dumduru bir bulaq, yaşı bilinməyən bir çeşmədir! Mənim üçün Aydın Quliyev qos-qoca, yaşı bilinməyən bir DƏDƏ, hər şeyi yenicə başlayan bir GƏNCdir! Və bu dədə gəncin bioloji yaşı- 65- i tamam olur.. əslində 650 il yaşamışlar kimi müdrikdi, kamildi! Cahana sığmazdı! Ömrü insana Tanrı verir... Qalır sən o ömrə nə sığdıracaqsan... Aydın Quliyev 65 ilə 650 ilin mirasını sığdırdı... Aydın Quliyev Düşüncədi, Fikirdi, Zəkadı! Aydın Quliyev İşıqdı! Və ən əsası Aydın Quliyev mənim dəyişməz dostumdu! Ömrün bərəkətli olsun, dostum! Mediamızın şah əsərlərindən biri olan "Bakıxəbər"in başı üstündən əskik olma! Ömür yaşın ağır olsun!

***Bakı Xəbər.- 2025.- 18 iyul.- S.3.***

### *Qızıl Alma: Dostum Azər Turanın 60 illiyinə*

Uşaq vaxtı yuxularında "Qızıl Alma" görərdi. Amma anlamını başa düşməzdi. O zaman o qədər nağıllar, dastanlar oxumuşdu ki, elə bilirdi ona buta veriblər. Həvəslə daha çox oxuyardı. Oxuduqca oxuyardı. Bir gün atası İmamverdi kişidən soruşdu ki, yuxularımda "Qızıl Alma" görürəm, bu nə deməkdir? El arasında çox tanınan, ziyalı mövqeyi olan İmamverdi müəllim xəfifcə gülümsədi, amma cavab verdi ki, belə şeyləri bilmək sənin üçün tezdir, sən oxumağını, yazmağını davam et. Mənə verdiyin sualın cavabını sətirlərin arasında tapacaqsan. Sovetlər Birliyinin qılıncının dalı da, qabağı da kəsən bir zamanda ən gözəl cavab bu idi.

Atasının bu cavabı ona bəs etdi. Oxuduqca sətirlərin arasını oxuyurdu, yazdıqca əsərlərində, məqalələrində çox az adamın başa düşdüyü sətiraltı mənaları qeyd edirdi. Nədən yazırdısa son nöqtədə "Turana - Qızıl Alma"ya gəlib dayanırdı. İçindəki o yanğını söndürə bilmirdi, yazdıqca yazırdı. Tilsim içində tilsimə düşmüşdü. Bir tilsimi açırdı, o biri tilsim qarşısına çıxırdı. Dözürdü, səbri daş deşirdi, ancaq usanmırdı, yorulmurdu. Toz basmış, Kremlin bizə unutdurmağa çalışdığı şəxsiyyətləri tədqiq edirdi, yazırdı, arxivlərdən çıxmırdı. Heç kimə fikir vermədən atasının nəsihət etdiyini dərk edirdi.

Kimləri o tədqiq etmirdi. Türk dünyasının fikir babalarını oxuyurdu, yazırdı. Başa düşürdü ki, sovetlər bu dahiləri onlardan niyə gizlədib.

Mahmud Qaşqarlı, Əhməd Yəsəvi, İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Nihat Atsız, Zəki Vəlidi Toğan, Bəkir Çobanzadə və onlarla dühalar onun tədqiqat obyektinə çevrildilər.

Bir gün anladı ki, fikir babalarını bir yerə yığanda "Qızıl Alma - Turan" eyləyir. "Turan", "Qızıl Alma" elə onun butası imiş.

Başa düşürdü ki, ideya və hədəf olmazsa, ən müasir silahlarla silahlanmış əsgər müharibədə yenə uduzacaq, çünki o bilməyəcək nəyin uğrunda vuruşur, döyüşür. İçi boş olan əsgərin qabağında durmağa nə var ki? Əsgərə hədəf göstər, durmadan döyüşəcək, vuruşacaq. Həm də ideya və hədəf cəmiyyətin bütün təbəqələrini bir araya gətirib xalq edəcək. Xalqı isə Orduya çevirəcək. O, qələmilə savaşırdı, onu süngüyə çevirdi. Onun qələmi hədəf göstərirdi. Qızıl Alma - Turan. İnanırdı ki, ideya minlərlə insanın beyninə hopandan sonra bu xalqı heç kim dayandıra bilməz. Əvvəlcə ideyanı mənimsətdirmək, sonra hədəfi göstərmək. O, belə də edirdi.

Otuzuncu illərdə düşünən beyinləri sovet rejimi məhv etdikcə "Qızıl Alma" haqqında fikirləşən ziyalılar sürətlə azalırdı. Bilənlərin də bəziləri susmağa üstünlük verirdilər. Sovet maşını bu ideyalardan kənarda özünün yeni hədəflərinə xidmət edən insanlar yetişdirirdi. Qorxuyla, pulla, ənamlarla, şirnikləndirməklə bu insanlar cəmiyyətin pərdə arxasında yatıb qalan hədəflərini gizlətməyə çalışırdılar. Çox zaman da buna nail olurdular. Cəmiyyət öz tarixini öyrənmək belə istəmirdi, çünki ta uşaqlıqdan beyinlər yuyulurdu, "sovet vətəndaşı" deyilən bir məfhum ortalığa atılırdı.

Amma cidanı çuvalda gizlətmək mümkün olmadığı kimi fikir babalarımızın da bizə miras qoyduğu ideya və hədəflər çox tezliklə ziyalılarımız arasında sürətlə yayılmağa başladı. İdeya daşıyıcısı kimi Azər Turan da genetik, qan yaddaşına söykənən hədəfləri cəmiyyətə göstərdi.

Onlarla kitab yazdı: "Əbədi Turan", "İrfan çobanı", "Cavidnamə", "Əli bəy Hüseynzadə" və başqa əsərlər onun qələmindən çıxdı. Əsas elmi tədqiqatları iki fikir babasını daha çox əhatə edirdi: Əli bəy Hüseynzadə, Hüseyn Cavid.

Hüseyn Cavidin ailəsinin faciəsini özünün, xalqın faciəsi kimi qəbul edirdi. Cavidin oğlu Ərtoğrolun ölümünü sovet maşınına bağışlamadı, ondan yazdı, ailə faciəsini teatrda tamaşaya qoydu.

Kövrək hisslərini elə qələmə aldı ki, sanki Ərtoğrol doğma qardaşı idi. Belə də olmalı idi, çünki o, fikir babası Hüseyn Cavidin oğlu idi. Münbit şərait olsa idi, Ərtoğrol da atası kimi Turan ideyasının daşıyıcısı olacaqdı. Səd heyf!

Hüseyn Cavidin qızı Turanla ana-bala idilər. Onun dediklərini, söylədiklərini, xatirələrini qələmə alırdı. Sonradan bu xatirələr kitab halında nəşr olundu. Onun butası gerçəkləşir. Türk dövlətlərinin təşkilatı yarandı, iqtisadi fəaliyyətin adı "Turan" qoyuldu. O, hədəfləri görür, yazır, yenə yazır. Qarşıda görülməli işlər çoxdur. Uzun illər dilimizi ayıran kəslərə tutarlı cavab olaraq ortaq dilimiz formalaşmalı, tariximiz yenidən yazılmalı, ədəbiyyatımız və incəsənətimiz bütöv hala gətirilməlidir. Bu elə Qızıl Almadır. Azər Turan da sevinir ki, ömrünün bu çağında, sovetlərin ona unutdura bilmədiyi ideya həyata keçir, addım-addım hədəfə doğru gedirik. Hədəfimiz Qızıl Almadır. Ziya Gökalpın "Turan" şeirində yazdığı kimi:

Vətən, nə Türkiyədir türklərə, nə Türkistan

Vətən, böyük və müəbbəd ölkədir - Turan...

Qızıl Alma - Azər Turan...

*Ədəbiyyat qəzeti.- 2023.- 30 sentyabr.- S.15.*

### *Bir qarabağlı dostum var...*

### *Yazıçı-dramaturq Elçin Hüseynbəylinin altmış illiyinə*

Bir qarabağlı dostum var.

Son vaxtlar gözlərindən parıltılı sevinc əskik olmur. Niyə də olsun? Doğulduğu dədə-baba torpaqları işğaldan azad olunub. Özü də Prezidentin dəvətilə oralarda, elin ağsaqqaları ilə görüşüb, baxmayaraq ki, o da artıq bu statusa iddialıdır. Bir görərdiniz Cəbrayıl azad olunanda necə sevinirdi? Özünə yer tapa bilmirdi, inanmırdı. İnanmırdı ki, iyirmi səkkiz illik həsrətə son qoyulub. Hərdən mənə elə gəlir ki, (bu məndə də olur) Elçinin içində bir boşluq yaranıb. On illərdir apardığı mübarizə nəticəsini verib. Onun roman və hekayələri ilə bütöv bir nəsil böyüyüb. Bu əsərlər gənclərimizi müharibəyə hazırlayırdı. İndi budur, hər şey həll olunub. 44 günlük möhtəşəm müharibə və möhtəşəm Zəfər çox daşları yerində oturtdu. Torpaq azad olundu, əsl sahibinə qaytarıldı. Bəs, o, indi nə edəcək? O, əlini əlinin üstünə qoyub gözləyən deyil. Qarabağ hədəfi həyata keçdisə, deməli, qarşıda yeni hədəflər üçün əsərlər yazacaq. O buna qadirdi, qüdrəti çatar. Bu gün "Qarabağ Azərbaycandır" şüarı "Zəngəzur Azərbaycandır" şüarına çevriləcək, qələmini silaha hazır tutacaq, yeni əsərlərlə bizi tanış edəcək. Vətəndaşlıq mövqeyindən, dövlət maraqlarından bir anda geri çəkilməyən dostum bu hədəfə də sağlığında çatacaq, hadisələrin tarixinə, gedişatına şahidlik edəcək.

Bir qarabağlı dostum var.

Ailəcanlı, dostuna etibarlı, millətini və dövlətini sevən, düşməninə amansız olan bir dost. Qələm onun əlindədir. Qələmin korlaşmasın, dostum!

***Bakı Xəbər.- 2021.- 23 dekabr.- S.10.***
***Ədəbiyyat qəzeti.- 2021.- 25 dekabr.- S.15.***
***Olaylar.- 2021.- 24 dekabr-6 yanvar.- S.15.***

# USTAD GETDİ

Onu həmişə Həsən bəy Zərdabiyə bənzədirdim. Oxşarlıqlarını axtarırdım. Hər ikisinin dünyasını anlamağa çalışırdım. Ömrünü xalq və onun maariflənməsi üçün şam kimi yandıranlar üzdə olmağı heç sevməzlər. İşləri-gücləri, yazı-pozuları XALQ və ONUN GƏLƏCƏYİ idi. Əsas məsələ yaddaşlardan heç zaman silinməyəcək tarixi günümüzə daşımaq, bildiklərini gəncliyə aşılamaq idi və edirdilər. Xalqın pərvanəsi idilər. Xalq üçün yanırdılar.

Birisini görmədik...irsini öyrəndik...

O birisi günümüzdə yaşayırdı, irsi öyrədirdi...

Birisinin yoxluğunu o birinin varlığı doldururdu.

O da getdi... Dünyanın boşaldığını o qədər aydın, o qədər aşkar hiss etdik ki...

USTAD getdi- ŞİRMƏMMƏD HÜSEYNOV... ZƏRDABİ bənzəri...

O olanda arxayındıq. Övlad atasına arxayın olan kimi...Arxayındıq ki, önümüzdə USTAD var...Cümhuriyyət və mətbuat tariximiz onluqdur...O nəhəndir, əzəmətlidir,qürurludur. Onun yanında özümüzü yığışdırırdıq. Çünki o nəhəng dənizin damlaları idik. O dənizə sevə-sevə qovuşurduq, dənizə çevrilməyə cəhd edirdik. Onunla mübahisə etməzdik, bu heç ağlımıza da gəlməzdi...Damla dəniz olmağa iddia edə bilər, əgər buxarlanmasa.....Biz isə öyrənə-öyrənə buxarlanırdıq, sonra buluda dönür, yağış halında yenə ona qayıdırdıq...

USTAD getdi...

Getdi bir də dönməyə...Bu dəfə ruhu ilə dönəcək. Yazdıqlarını, hələ yaza bilmədiklərini bizə yenidən öyrətmək üçün yenə dönəcək...hər addımda ondan misallar, iqtibaslar çəkəcəyik...onun yaşam və iş tərzini, millətə, dövlətə,vətənə sevgisini nəsillərə örnək kimi göstərəcəyik...

USTAD getdi...

İşıqlı gözləri və sarkazm, amma səlis danışığı yaddaşımda həmişəlik həkk olunub. O müstəqillik dövrü ilə fəxr edirdi...Onun yaradıcılarına nəhayətsiz sayğı duyur,onlar haqqında yazdığı üçün qürurlanırdı...Onlar haqqında yazanda bilirdim ki , o böyük insanlarla təmasda olur...

USTAD getdi...MÜƏLLİM getdi...ATA getdi.. Yetim qaldığımızı hiss edirsinizmi...

Biz də səninlə nəhayətsiz fəxr edirik ,USTAD...Bizdən də təmaslarını əksik etmə.. Ruhumuzu yetim qoyma..

RUHUN ŞAD OLSUN!

***Ədəbiyyat qəzeti.- 2019.- 29 iyun.- S.3.***

**Səssiz yeriyən ADAM**

**Akademik Nizami Cəfərovun 60 illiyinə**

O səssiz yeriyir. Çoxları onu başa düşmür. Bəzilərinə sadə, bəzilərinə qəliz, bəzilərinə isə "özününkü" kimi görünür bu ADAM. Deyər, gülər, fikir bildirər, ancaq səssizliyin içindən boylanar bu ADAM.

Minillərin yükünü, biliyini, dərdini çəkir bu ADAM. Ona görə səssiz yeriyir. Qorxur ki, çəkdiyi bu yük dağılıb tökülər, məhv olar, töküləni kimsə qaldırmaz, heyf olar. Ona görə ehtiyatla yeriyir, səssiz yeriyir. Anlayır ki, bu millət, bu xalq, bu tayfa, bu qəbilə ona bir ƏMANƏT qoyub; QAN YADDAŞI ƏMANƏTİ. Bu yaddaşı hər kəsə ƏMANƏT qoymurlar. Bu YADDAŞI SEÇİLMİŞlərə ƏMANƏT verirlər.

Onun səssizliyinin içində MÜDRÜKLÜK var, MƏSULİYYƏT var. Bu üzdən SƏSSİZ yeriyir, SƏSSİZ danışır.

Onun SƏSSİZ addımlarının səsini eşidirəm. Səssizlik SƏS yaradır, MÜHÜT yaradır, MƏKTƏB yaradır.

İlahi! Bu səssizliyin içində nələr yoxdur? Min illərin tarixi, dili, şifahi və yazılı ədəbiyyatı. Səssiz danışır. İçindən tarixi dostları axışıb gəlir. Bu günün dostları yox eee... Bu bilikləri ona ötürən dostlar axışıb gəlir. Deyirlər, öyrədirlər, ötürürlər. Tarixi pıçıldayırlar, dilimizin mükəmməlliyini və gözəlliyini ötürürlər ona. Ətrafdakı dostlardan da ehtiyatlı olmağı məsləhət görürlər. Yükünü heç kimə verməsini istəmirlər. Başını müdrükcəsinə yelləyərək səssiz yeriməyində davam edir.

Ağır olan ətrafı onu başa düşmür. İstədikləri dövrün yaşam istədikləridir. Birinin ailə vəziyyəti ağırdır, biri elmdə, digəri bədii ədəbiyyatda qısırdır. Ətrafının hay-küyü onu səssiz yeriməyə vadar edir. O, bu dünyanın dərdini, sərini həll etməyə gəlməyib. Onun missiyası başqadır. Ancaq kimə deyirsən, kimi başa salasan? Bu üzdən, o içində səssiz yeriyir. Qarşısına qoyulan Ali məqsədə doğru yeriyir... səssiz yeriyir. Onu başa düşənlər barmaq sayı qədərdir. Arada dayanıb nəfəs alır, ətrafına baxır. Onlar harda, o harda? Arada təəssüf də edir. Seçilmişlərin bəziləri sosial, ailə qayğıları içində itib batır, sonra HAMIYA qarışırlar. Əlini atıb onları oradan çıxartmaq istəyir. Amma ağır ƏLLƏR onu özlərinə doğru çəkməyə başlayanda, o geri çəkilir. Sonra yenə SƏSSİZ yeriməyinə davam edir.

O hissəcikləri, dağılıb itməkdə olanları kütlə halına gətirməyi bacarır. Sonra bu kütləni strukdurlaşdırır, suxurlaşdırır, ona forma və məzmun verir.

Səssiz yeriyə-yeriyə RUHUNU keçmişdən gələcəyə daşıyır. Daşıdıqca hər dayanacaqda vaxtı və zamanı bitmiş hissəcikləri, kəsləri elə o ayanacaqda düşürür, özünü silkələyib yeni səssiz yoluna davam edir.

Yeridikcə kəhkəşanları görür, onların içində millətin tutacağı, dilinin söykəndiyi mənbəni görür, qürur duyur, fəxr edir, qürurlanır.

Dostlar arasında güləndə, gülüşü titrəməyə, zəlzələyə çevrilir. Çoxları görmür bu titrəmənin, zəlzələnin içindən nələr tökülüb səssiz yeridiyi yollarda qalır. Yad ünsürləri, nifrəti, xəyanəti, satqınlığı, əcaib-qəraib şeyləri özü ilə apara bilməz bu yolçuluqda. Gülüşü, zəlzələsi onları töküb

sökür bu yollarda. Bu səssizlikdə saflıq lazımdır, sevgi lazımdır. Bu eşqin yoludur. Səssizlik həm də Tanrı YURDUDUR. Tanrı yoluna bundan savayı yol yoxdur.

Səssizlikdə yaşayan onun qəlbidir, beynidir, düşüncələridir, fikirləridir. Özünün xəbəri də olmadan beynində "fikir qəbirstanlığı" yaradıb. Səssizcə ölən fikirlərini, düşüncələrini beynindəki "fikir qəbirstanlığı"nda basdırır. Sonra buna səssizcə peşman olur, fəryad edir, təəssüflənir, amma yenə səssizcə yoluna davam edir.

Yeriyən adam yolçudur. Yolçuluğun məramı, məqsədi olar. Səssiz yeriməyinsə öz aləmi, öz xatirələri var, hər mənzilin öz dayanacağı var. Bu dayanacaqda səssizcə lazım olamayanlar tökülür... tökülür... gərək olmayanlar bu dayanacaqlarda tökülüb qalır. O isə səssiz yoluna davam edir.

Onun üçün VƏTƏN MİLLƏT deyil, MİLLƏT VƏTƏNdir. O yoldan nələr görünür... nələr? İlahi EŞQdən başlayan MİLLƏT, VƏTƏN, DÖVLƏT.

Səni sevəcəklər də, tənqid edəcəklər də.

VƏTƏN- səni sevməyəcək hər yoldan ötən!

Yol gedirsən səssiz yeriyirsən bu yolda. Sən bu yoldasan.

MİLLƏT yolu ruhunda!

VƏTƏN yolu canında!

DÖVLƏT yolu qanında!

İLAHİ EŞQ yolu VƏHDƏTİ VÜCUDUNdur.

VƏHDƏTİ VÜCUDUN mübarək olsun! Bu üçü olmasa VƏHDƏTİ VÜCUDUN olmaz"

Səssizliyin mübarək!

***Olaylar.- 2019.- 12 fevral.- S.9.***
***525-ci qəzet.-2019.- 14 fevral.- S.7.***
***Ədəbiyyat qəzeti.- 2019.- 16 fevral.- S.21.***

## Üç İsa

### Akademik İsa Həbibbəylinin yetmiş illiyinə

Mənim həyatımda İsa peyğəmbər rol oynamayıb. Bəlkə də dolayısı ilə təzahürü olub, amma əlimdə bilgilər yoxdu. Düzdür, istəsəm telepatiyanın gücünə öyrənə bilərəm. Amma zamanı və məkanı dəyişdirməyə ehtiyac duymadığımdan bunu lüzumsuz saydım.

Həyatımda Məhəmməd peyğəmbər (c) rol oynayıb, çünki hal-hazırda bu islam dininin daşıyıcılarından biriyəm. Onun (salavutallahın) şəhadətinə görə İsa peyğəmbər peyğəmbərlərin ən önəmlisi idi və İsanın (ə) İncildə dediyinə görə "məndən sonra sonuncu peyğəmbər "Əhməd" gələcək". Məhəmməd peyğəmbər (c) ondan öncə olan peyğəmbərlər arasında vəsilə yaratdı və bunu da "Qurani- Kərim"də möhür kimi qeyd etdi. Müsəlmanlar yaxın tarixə qədər övladlarına digər peyğəmbərlərin də adını verirdilər. Bunu niyə keçmiş zamanda yazdım? Təəssüflər olsun ki, son zamanlar xurafat və cahillik artıq buna imkan vermir, hətta bir yas yerində "başqa peyğəmbərlərin adını bilirsənmi" sualıma cahillərdən biri "başqa peyğəmbərlər olubmu?" cavabını verdi. XXI əsrdə hansı zamana gəlib çıxdıq? Yüz illərdir atalarımız övladlarına demək olar ki, bütün peyğəmbərlərin adlarını veriblər: Adəm, Nuh, Lut, Saleh, Yunus, İsa, Davud, Süleyman, Məhəmməd və sairə, sairə... 124 min.

İsa peyğəmbər bizə çox doğmadır, çünki sonuncudan əvvəlkidir. Buna görə yüz illərdir atalarımız övladlarına "İsa"adı verməkdə yanılmayıblar.

Mənim həyatımda üç İSA var. Bəlkə bu təsadüfdən, bəlkə də zərurətdəndir.

Birincisi atam İsaxandır. Bilmirəm, türk əsilli olduğumuz üçün, xristianlığa nə vaxtsa tapındığımız üçün, tanrıçılığı dinimizin əzəlində hesab etdiyimiz üçün məndən öncə olan soy-köküm dünyanın bütün məşhur peyğəmbərlərinin adlarını övladlarına isim kimi verirdilər, amma köklərini, hardan gəlib, hara getdiklərini yaddan çıxartmamaq şərtilə. Bizim tərəflərdə etnik kimlik əsas şərtlərdən biri idi. İllah da sovet vaxtında. Baxın! Babam Babaxanın üç oğlu olub: Əmirxan, Mirzəçan, İsaxan.

Məhz üçüncünün, yəni atam İsaxanın daima məni kitaba, sonralar elmə həvəsləndirdiyini nə zamansa xatirələrimdə yazacam.

İkinci isə adı İsa olan qayınatamdır. Düşünürəm, İsa kişi elmə, təhsilə, bu qədər qiymət verməsəydi, kim bilir, ailə qurduqdan sonra haralardaydım... "Hər güclü erkəyin arxasında, onu başa düşən güclü qadın var" deyimi tamamilə doğrudur. Hələ mən bizim, iki insanın davamçısı olan mükəmməl qızımız haqqında yazmaq istəmirəm. Bu da başqa mövzudur.

Üçüncü İsa isə mənəvi dünyası zəngin, mərifət və şərafətinə görə akademik İsa Həbibbəylidir. Qabaqcadan deyim ki, birinci iki İsaya sonsuz sevgim olsa da, mənə mənəvi dünyanın ənginliklərinə baş vuran, hər sözündən, sətrindən yüzlərlə İSA doğulan İsa Həbibbəyli daha yaxındır. İsa Həbibbəyli maddi dünya deyil, vücud deyil, bu böyük İNSAN SÖZ-dür. Sözdən yoğrulan İNSAN , sonra da ALİM-ə çevrilən İNSAN.

Bu tərif deyil. Onun içində bir can var. Canın içində can! Bəzən çoxları başa düşmürlər ki, bu İNSAN-ı, bu CAN-ı bizə sevdirən nədir? Sözünün içində bir CAN var. Canın içində od var, alov var, enerji var. Heç kimə baxmaz, heç kimə SÖZ-ün qüdrətini çatdırmaz, amma elə yazar ki, SÖZ-ün arxasından SÖZ-ün qüdrəti özü görünər. İNSANIN arxasından SÖZ görünər, boy verən SÖZ böyüklüyü görünər. Yalnız bunun arxasından şəxsiyyət görünər, elə üçüncü İSA görünər.

Candan yazdıq. Can mühərrikdi. Sözdən yazdıq. Söz mühərrikdi. Cismin mühərriki (motoru) istənilən insanda nə zamansa dayanacaq, amma CAN-ın və SÖZ-ün mühərriki əbədidir. Bunlar dayanan deyil. Onların enerjisi gələcək nəsillərə ötürülür. İncildə və Quranda yazıldığı kimi; öncə SÖZ gəldi dünyaya, yalnız bundan sonra on səkkiz min aləm yarandı.

SÖZ-ün qədrini və qüdrətini bilən İSA Həbibbəyli hər yeni sözə ruh verir, istiqamət verir. İstedadları yönəldir, arxasında durur.

Bilirəm bədxahlarımız mənim müqayisə üçün yazdıqlarıma ağız büzəcək, küfrlə günahlandıracaq. Olsun, amma ölmüş SÖZ-ü kimsə dirildəcəksə, ona yeni həyat verəcəksə, o elə İSA-dır!

Nə qədər ki, SÖZ-ün mahiyyətini, zatını, sifətini cəmiyyət anlamayacaq, İsa Həbibbəyli kimi alimlər elə İSA-dır. Təəssüflər olsun ki, belə İSA-lar çox azdır.

Onun canında bir CAN da var. Bu AZƏRBAYCAN-dır. İliyinə qədər işləyən bu sözün adı çəkiləndə hər şeyini unudan bir CAN. Çoxları bunu anlamırlar, başa düşmürlər. Arada bir sual da verirlər: bizim canımızdan onun CAN-ı nə ilə fəqlənir? Onun CAN-ı SÖZ-ünün qüdrətindədir. Azərbaycan sözünün içində qüdrətini, möhtəşəmini gözləyən bir CAN.

Kimsə ehtiramını, möhtəşəmləyini, faniliyini bu dünyaya dəyişir. Dünyanın sözünü dünyaya çatdırır. İSA isə o dünyadakı sözün möhtəşəmliyini və həşəmətini bu dünyaya çatdırır. Anlayan anlasın, anlamayan isə yenə "alim"liyini etsin.

İçində Azərbaycan, millət, xalq, kökünə və törəsinə, dövlətinə bağlı olan nə qədər İSA-mız var? Barmaqla sayıla bilər. Elə günümüzdə yaşayan belə Məhəmmədlər, Salehlər, Süleymanlar, Yunuslar, Davudlar, Lutlar, Nuhlar nə qədərdir? Yenə barmaqla saymaq olar.

Can enerjidir. əbədi mühərrikdir. Canın istədiyini, bildiklərini SÖZƏ çevirib CİSMƏ ötürmək çox ağır məsələdir, çoxları üçün arximüşküldür. Bu seçilmişlərə aiddir.

Sözü cismə ötürmək, cismi SÖZ-ə və CAN-a çevirmək hər adama müyəssər olmur. İSA bunu bacarır, çünki o seçilmişlərdəndir. Cismi CANa, sonra isə əksinə CANı cismə çevirmək onun qismətinə yazılıb. Ortada isə SÖZ var. Dünyanın ən böyük xalqı o xalq olacaq ki, o SÖZ-ünə sahib olacaq, SÖZ-ün dəyərini biləcək. İsa Həbibbəyli xalqının söz sahibi olması uğrunda canını və qanını ortalığa qoyan bir insandır. Alimliyi sonradır, əsas İNSAN-lığıdır.Əsas İSAlığıdır!

SÖZ-ün mübarək, USTAD!

...Üç İSA-m var. Biri qanım, biri sümüyüm, biri isə canım.

Canım əbədi olmasa, qanım və sümüyüm sonradan unudulacaq, kiməsə yamaq olacaq, necə ki, indi bunun çox zaman şahidi oluruq.

İsa Həbibbəyli canımızdır. Canımızın vasitəsilə qanımızı, sümüyümüzü özündə birləşdirən Azərbaycanımız!

P. S. Duydum ki, çevrəmizdə dördüncü İsa da var. İsa Həbibbəylinin nəvəsi İsa. Qanımız, sümüyümüz, canımız olacaq, bunu zaman göstərəcək. Hər üçünün babasındakı kimi vəhdətdə olmasına heç də şübhə etmirəm. Axı kiçik İsa SÖZ-ün nəvəsidir.

***Olaylar.- 2019.- 15-16 oktyabr.- S.9.***

**"Allahı, yoxsa Əzrayılı qatil edənlər?"**

Nəhayət ki, Azərbaycan ədəbiyyatında dövlətin və cəmiyyətin əsas hissəsi olan ordumuz haqqında tənqidi roman yazıldı. Söhbət Aqil Abbasın "Allahı qatil edənlər" əsərindən gedir. Məni əsas təəccübləndirən bu romanı Aqil Abbasın yazmasıdır. Çünki görüşlərimizdə, mətbuata açıqlamalarında ordumuz haqqında ən çox dözümlülük göstərən, ordudakı neqativ halları xəsisliklə öz qəzetində yerləşdirən elə bu romanın müəllifidir.

"Öz ordusunu yedizdirməyən xalq, başqa ordunun əsgərlərini yedizdirməyə məcbur olacaq" kəlamı romanda qırmızı xətlə keçir.

Məlumdur ki, son zamanlar orduda ölüm sayları əsasən intiharların ayağına yazılır. Bu roman məhz bir neçə intiharın ümumiləşdirilməsi nəticəsində yaranıb, desək yanılmarıq.

Bütün dövlətlərin ordusunda belə hallar olur. Şəhid, qəza, döyülmək, söyülmək, təhqir olmaq və ya çoxsaylı başqa hallar. Bu halları təhqiq edən müstəntiqlər, kriminalistlər, polkovniklər (bilərəkdən, Aqildən fərqli olaraq adları kiçik hərflərlə yazıram, yalnız yaratdığın "Akademik", böyük hərflə yazılmağa layiqdir) başqa ölkələrdə ədalətlə bu işin axırına gedir, cavabdehləri qanunla mühakimə edirlər. Yəqin ki, kimsə romanın əvvəlində ölüm hadisələrini oxuyanda fikirləşəcək ki, Aqil Abbas da bu yolla gedəcək və N saylı hərbi hissədə baş verən intihar hadisələrinin səbəbkar, yaxud səbəbkarları tapılacaq və layiqli cəzalarını alacaqlar və roman sizə quru süjet üzərində qurulan əsər kimi deyil, yaxud quru məhkəmə prosesi qədər maraqlı gəlməyəcəkdir.

Yox, yox, tələsməyin, romanı oxumaqda davam edin. Aqil də Aqil Abbas olmazdı ki, əsəri quru və konyuktur süjet üzərində qursun. Hadisələr tez- tez dəyişir. Aqil Abbas qatilin axtarışına çıxdıqca gah müstəntiqin, gah da kriminalistin dili və məntiqi ilə Şerlok Holms kimi axtarışa çıxır, mülahizələr yürüdür. Nəticədə istədiyinə çatır. Qanunsuz işlər görən, hərbi hissəni öz dükanı hesab edən alay komandirini oğlunun ölümünə görə güllələyən şəxs nəhayət ki, tapılır. Qatil Anadır, ölən əsgər- Akademikin anası.

Bax burada Aqilin improvizəsi baş gicəlləndirir. Necə yəni alay komandirinin qatili qadındır, özü də böyük hərflərlə yazılan ANA. Bəs atalar, oğullar haradadır? Bəs qanunlar haradadır? Hə, bax burada oxucuları intizarda saxlamağa məcbur olacam ki, özləri oxuyub ədalətin necə bərpa olunduğunu görsünlər.

Aqil Abbas bu romanda çox ciddi bir problem qoyub. N saylı hərbi hissədə qanun işləmirsə, kimsə etdiyi cinayətə görə həbsxanada deyil, azadlıqda gəzirsə, bu cəzasızlıq sindromu yaradır. O zaman cəzasızlıq sindromu özbaşınalıqla əhatələnir. Və... ürəyi param-parça olmuş insan intiqam hissi ilə alışıb yanır. Bu intiqamı almağı əsərdə ANA boynuna götürür və həyata keçirir. Amma əsərdə Aqil bəy onu da cəzasızlıq sindromuna yuvarlayır və haqq da eyləyir.

Nə isə, Aqil bəy demişkən, yenə qırx bulağın suyunu bir çaya axıtdım deyəsən. İstənilən halda Aqil Abbas romanında cəmiyyətdə bu gün yaşanan problemin üzərinə cəsarətlə gedib və onu cəsarətlə açıb göstərib, həm də həllini tələb edir... "Axı biz bu ölkədə hamımız qardaşıq, müsəlmanıq, bir yerdə çörək kəsib yemişik".

Təşəkkürlər Aqil Abbas!!!

P.S. Dünyaya gəlmək və ölmək əmrini Allah verir. Amma bu əmri mələklər və insanlar həyata keçirir. Əgər bu romanı mən yazsaydım onu belə adlandırardım: "Əzrayılı qatil edənlər".

***525-ci qəzet.- 2011.- 22 oktyabr.- S.17.***